● Regionların sosial-iqtisadi inkişafı

# Gəncə vaqon deposunun kollektivi peşə bayramını yüksək iqtisadi göstəricilərlə qarşılayır



Təməlini ulu öndərimiz Heydər Əliyevin qoyduğu iqtisadi inkişaf kursu bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Öz fəaliyyətində Heydər Əliyev ənənələrinə sadiq qalan, demokratik dəyərləri uca tutan ölkə başçısının rəhbərliyi ilə Azərbaycan bu gün təkcə regionda deyil, bütövlükdə bütün dünyada sayılıb-seçilən, sürətlə inkişaf edən bir dövlətə çevrilib. Bütün sahələrdə aparılan məqsədyönlü islahatlar ölkə iqtisadiyyatının dinamik inkişafını təmin etmişdir. Son illər bu tərəqqi və inkişafın fonunda Azərbaycanın nəqliyyat kompleksi də davamlı, dinamik inkişafdadır. Dövlətimiz tərəfindən məqsədyönlü şəkildə reallaşdırılan nəqliyyat siyasəti bu mühüm sahənin modernləşməsinə, müasir dünya tələbləri səviyyəsinə çatdırılmasına imkan vermişdir.

Bu gün Azərbaycanda yolnəqliyyat, o cümlədən dəmir yolu sahəsində irimiqyaslı tədbirlər, yenidənqurma işləri daha intensiv xarakter alıb, bu sahədə infrastruktur layihələri uğurla, vaxtında və keyfiyyətlə reallaşdırılır. Dəmir yolunda həyata keçirilən istər region, istərsə də bütün dünya əhəmiyyətli layihələrdən biri Bakı-Tbilisi-Qarsdır. Azərbaycan Prezidentinin xüsusi diqqət və qayğısı ilə burada işlər sürətlə aparılır, yaxın zamanlarda bu yolun istismara verilməsi nəzərdə tutulub. Azərbaycan üçün böyük iqtisadi-siyasi əhəmiyyətə malik olan bu strateji layihənin həyata vəsiqə alması ilə ölkəmiz regionda logistik bir nəqliyyat mərkəzinə çevriləcək, Avropanı Asiya ilə birləşdirəcək və istər yük, istər sərnişindaşımada ölkəmizin tranzit potensialını artıracaqdır. Dəmir yolu sektorunda yenidənqurma, müasirləşmə işləri 2015-ci ilin ötən 9 ayında uğurla davam etdirilmişdir. “Azərbaycan Dəmir Yolları” QSC-nin sədri Cavid Qurbanovun rəhbərliyi ilə qısa müddətdə Bakı-Biləcəri-Sumqayıt marşrutu üzrə hərəkət edən ilk sərnişin qatarı yola salınmışdır. Bu da onu göstərir ki, dəmir yolunda aparılan məqsədyönlü işlər öz müsbət nəticəsini verir. Bu inkişaf mühitindən yararlanan Gəncə vaqon deposunun kollektivi də ötən 9 ayda yüksək göstəricilər əldə edib.

Qeyd edim ki, Gəncə vaqon deposunun əsas istehsal fəaliyyəti yük vaqonlarının əsaslı, depo və cari təmirindən, onların yük altına hazırlanmasından, qatarların qəbulu və texniki xidmət göstərilərək saz vəziyyətdə yola salınmasından, vaqon parkının qorunub saxlanmasından və Böyük-Kəsik stansiyasından Ucar stansiyasına qədər, həmçinin Gəncə vaqon deposunun xidmət etdiyi qollarında Böyük-Kəsik-Qazax, Ağstafa-Yeni Poylu, Alabaşlı-Quşçu, Gəncə-Yevlax-Bakən, Yevlax-Ağdam məntəqələrində də qatarların hərəkətinin təhlükəsizliyini təmin etməkdən ibarətdir.

Depoda qatarların hərəkətinin təhlükəsizliyinin artırılması istiqamətində Böyük-Kəsik Texniki Müayinə Məntəqəsində cari təmirə açılan vaqonların təmiri üçün 250 m²-lik sex yenidən qurulmuşdur ki, bu da işçilərin istər



isti yay aylarında, istərsə də qışda havanın soyuq və şaxtalı vaxtlarında rahat işləmələrini təmin edir. Gəncə vaqon deposunun 2015-ci ilin 9 ayı ərzində “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin inventar vaqon parkına məxsus yük vaqonlarının əsaslı təmiri üçün nəzərdə tutulan 165 ədəd vaqona qarşı 160 vaqon təmir olunmuşdur ki, bu da 97 faiz təşkil edir. Əsaslı təmir olunan vaqonların 35 ədədi qapalı, 25 ədədi açıq, 55 ədədi yarımvaqon və 18 ədədi sisterndir.

İnventar vaqon parkına məxsus yük vaqonlarının depo təmiri planda nəzərdə tutulan 930 ədəd vaqona qarşı 1042 ədəd vaqon olmuşdur ki, bu da 112 faiz təşkil edir. Onlardan 433 ədədi sənaye müəssisələrinə aiddir. Depo təmirindən buraxılan vaqonların saylı 106 ədəd qapalı, 101 ədəd açıq vaqon, 330 ədəd yarımvaqon, 353 ədəd sistern, 152 ədəd qeyri-tip vaqonlar olmuşdur. Cari təmir üzrə planda nəzərdə tutulan 360 ədəd vaqona qarşı 456 ədəd vaqon təmirdən keçib. Bu göstərici də 127 faizdir. Bunlardan 64 ədədi qapalı, 38 ədədi açıq, 173 ədədi yarımvaqon, 119 ədədi sistern, 62 ədəd vaqon isə qeyri-tip vaqonlar olmuşdur. Vaqonların təmirinin keyfiyyətinin artırılması istiqamətində əməli tədbirlər görülmüşdür. Bunun nəticəsidir ki, 2015-ci ilin 9 ayı ərzində heç bir xəta hadisəsinə yol verilməmişdir.

Ötən dövrdə Gəncə vaqon deposunda aparılan müasir tələblərə uyğun quruculuq, abadlıq və işçilərin əmək şəraitinin yaxşılaşdırılması istiqamətində böyük işlər görülmüşdür. Depoda çalışan işçilər üçün 150 m²-lik soyunubgeyinmə otağı, eyni zamanda onların nahar etmələri üçün 100 m²-lik yeni yeməkxana təşkil edilmişdir. Bundan başqa, sex işçiləri üçün, Ağstafa TXM-də və Gəncə TMM-də vaqon müayinəçiləri üçün sanitar qovşağı tikilərək istifadəyə verilmişdir. Deponun əsas təmir binasının 4 darvazası yenisi ilə əvəz edilib. Yığma sexinin 1-ci yolunun relsi yenisi ilə əvəzlənib və betonlanma işləri aparılıb.

Avtoqoşqu və avtoəyləc sexləri tam texnoloji prosesə uyğun olaraq yüksək səviyyədə əsaslı təmir olunub, bütün sexlərin çərçivələri, pəncərələri və işıqlandırma qurğuları yeniləri ilə əvəz olunmuşdur. Depodaxili su xətləri yenisi ilə əvəz edilmiş, su təminatını yaxşılaşdırmaq üçün 2 böyük ehtiyat çəni su xətlərinə quraşdırılmışdır. Bundan əlavə, inzibati binada 150 nəfərlik konfrans zalı da tikilməkdədir. Nəzərdə tutulub ki, deponun yığma sexinin qalan 3 yolu da əsaslı təmir edilsin. Diyircəkli yasdıqlar şöbəsinin, təkər cütlərinin buks qovşaqlarının yığılma sahəsi genişləndirilsin və yeni avadanlıqlarla təchiz olunsun. Depoda xalqımızın ümummilli lideri, dünya şöhrətli dövlət xadimi Heydər Əliyevin dəmir yolu işçiləri ilə görüşlərini əks etdirən fotoguşəsi yaradılmışdır.

Son illər dövlətimizin apardığı uğurlu iqtisadi siyasət bütün xalq tərəfindən dəstəklənir, Yeni Azərbaycan Partiyasına olan inam daha da artır. Bunun nəticəsidir ki, depoda ilin əvvəlində YAP-ın üzvləri 43 nəfər idisə, 9 ay ərzində onların sayı 73 nəfər artaraq 116 nəfər olmuşdur. 8 nəfər isə üzv olmaq üçün müraciət etmişdir.

**Bəşir ƏSƏDOV,**
**Gəncə vaqon deposunun rəisi.**